

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (21.047)

5 avqust 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Prezidenti İlham Əliyev avqustun 4-də Xətai rayonundakı 56 nömrəli orta məktəbin binasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası uğurla həyata keçirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, məktəbin binası 1976-cı ildə inşa olunub. 960 şagird yerlik məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Prezidentin tapşırıqlarına uyğun olaraq, yeni dərs ilinə hazırlıq məqsədilə məktəbin binası əsaslı şəkildə yenidən qurulub, lazımi ləvazimatla təchiz edilib.

Dövlətimizin başçısına Xətai rayonundakı məktəblərdə görülən təmir və yenidənqurma işləri barədə də məlumat verildi.

Prezident İlham Əliyev məktəbin sinif otaqlarına baxdı, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu. İdman zallarında və hərbi hazırlıq kabinetində də yüksək şəraitin yaradıldığı vurğulandı.

## Naxçıvanda növbəti iməcilik keçirilmişdir



Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev vaxtilə deyirdi ki: ***"Biz təbiətimizi nə qədər sevsək, onu nə qədər yaxşı mühafizə etsək, o da bizə o qədər qida və şəfa verəcəkdir".***

Muxtar respublikada ekoloji siyasət uğurla həyata keçirilir, meyvə bağlarına və yaşıllıq zolaqlarına qulluq daim diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi isti yay günlərində də iməciliklər davam etdirilir, ağaclara aqrotexniki qulluq göstərilir. Təbiətə bu cür qayğı ilə yanaşmaq Naxçıvanın yaşıl örtüyünü ilbəil zənginləşdirir, ekoloji tarazlıq qorunub saxlanır.

Avqustun 2-də muxtar respublikada növbəti iməcilik keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və "Dizayn Holdinq" Şirkətlər İttifaqının kollektivləri Uzunoba Su Anbarının yaxınlığındakı 10 hektarlıq ərazidə keçirilən iməcilikdə iştirak etmişlər.

Ötən iməciliklər zamanı ərazidə 4 mindən artıq meyvə tingi əkilmiş, damcılı suvarma sistemi qurulmuşdur. İməcilik iştirakçıları ağacları suvarmış, budama işləri aparmış, ətrafda səliqə-sahman yaratmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Bank binası yenidən qurulur

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən quruculuq tədbirləri sırasında dövlət qurumlarında çalışan işçilərin iş şəraitinin yaxşılaşdırılması mühüm yer tutur. Son illərdə bu istiqamətdə atılan addımlar müxtəlif sahələri əhatə edən yeni iş yerlərinin yaradılması ilə yanaşı, işçilər üçün rahat və müasir tələblərə cavab verən iş şəraitinin təmin olunması baxımından da təqdirəlayiqdir. Rahat iş şəraiti yaradılan təşkilatlar arasında Naxçıvan şəhərində fəaliyyət göstərən banklar da vardır. Tikilən və ya əsaslı şəkildə yenidən qurulan bank binalarının sırasına Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublika İdarəsinin inzibati binası da qoşulub.

Cari ilin mart ayından başlayaraq binanın təməl hissəsi 3 metr hündürlüyündə yenidən qazılaraq qurunt sularından yarana biləcək nəmliyə qarşı qoruyucu izolyasiya təbəqəsi ilə təmin olunub. Sonra isə zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan binaya 1 mərtəbə əlavə edilib. İş icraçısı İntiqam Hüseynovun verdiyi məlumata görə, bu mərtəbədə beton-qəlib işləri yekunlaşıb, dam örtüyünün vurulması isə davam edir. Yaxın günlərdə arakəsmələrin hörülməsinə başlanılacaq. Bina hazır olduqdan sonra sonuncu mərtəbədə foye, 4 iş otağı, iclas zalı yerləşəcək. Eyni zamanda binanın fasad hissəsi milli ornamentlərə uyğun üzlük daşla, ön hissəsi müxtəlif həndəsi formalara malik şüşə konstruksiya ilə üzlənəcək. Ərazidə quraşdırılacaq işıqlandırma sistemi bank binasına xüsusi gözəllik verəcək.



Qeyd edək ki, binanın inşaat işləri "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Tikintidə, əsasən, yerli tikinti materiallarından istifadə olunmaqla bərabər, təhlükəsizlik tədbirlərinə də ciddi əməl olunur.

## Nəqliyyat sektoru davamlı inkişafdadır

Naxçıvan Muxtar Respublikasında müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Həyata keçirilən tədbirlərin mühüm bir hissəsini muxtar respublikanın daxili avtomobil yollarının yenidən qurulması təşkil edir. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, muxtar respublikada müasir avtomobil yollarının çəkilişində istifadə olunması məqsədilə cari ilin ilk yarısında 2 ədəd yük avtomobili, 2 ədəd ekskavator, 1 ədəd qreyder və 1 ədəd vərdənə alınmışdır. Yaradılan şərait muxtar respublikada avtomobil yollarının yenidən qurulmasına imkan vermiş, cari ilin yanvar-iyun ayları ərzində 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun tikintisi başa çatdırılmış, Qıvraq-Püsyan-Xanlıqlar, Yarımca-Qahab-Naxışnərgiz və Şəkərabad-Hacıvar avtomobil yollarının yenidən qurulması, Naxçıvan, Şərur və Ordubad şəhərlərində daxili avtomobil yollarının təmiri davam etdirilmişdir. Habelə qeyd olunan dövrdə Şahbuz rayonunun Badamlı kəndində 9 paqonometr uzunluğunda körpünün tikintisi, Ordubad rayonunun Yuxarı Əylis kəndində 1,1 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması başa çatdırılmış, Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində istinad divarının tikintisi, Naxçıvan şəhərinin "İstiqlal" küçəsində, Babək rayonunun Babək qəsəbəsində, Şərur rayonunun Püsyan, Kürkənd və Dizə, Babək rayonunun Vayxır kəndlərində avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.

2014-cü ilin ilk 6 ayı ərzində muxtar respublikanın nəqliyyat sektorunda yük daşınması 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz, sərnişin daşınması isə 2,1 faiz artmışdır. Yük və sərnişin daşınmasından, bütövlükdə, 22 milyon 54 min manat gəlir əldə edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricidən 2,4 faiz çoxdur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən aldığımız məlumata görə, muxtar respublikada istismar olunan avtomat telefon stansiyalarının 94 faizi optik arabağlantılarla təmin olunub. Bu gün muxtar respublikanın sabit telefon şəbəkəsinin Yeni Nəsil Telekommunikasiya Sistemi ilə əvəz olunması uğurla həyata keçirilir.***

## "Evədək optika" layihəsi uğurla icra olunur




Bu işlərin davamı kimi, Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası xüsusi qeyd olunmalıdır. Layihə GPON (Gigabit Passive Optical Network) avadanlığı vasitəsi ilə reallaşdırılır. GPON avadanlıqlarının abunəçi şəbəkəsinə tətbiqi bir optik lif vasitəsi ilə telefon, yüksəksürətli internet, videotelefon və İP televiziya adlanan rəqəmli televiziya xidmətinin yüksək keyfiyyətlə istifadəçiyə çatdırılmasını təmin edir. GPON avadanlığının tətbiqi mövcud şəbəkə infrastrukturunun veriliş məsafəsini, buraxılış qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaq. Avadanlığın köməyi ilə optik lifli kabeli birbaşa abunəçinin evinə çəkmək və beləliklə də, ona mis məftilin imkanlığından 100 dəfə yüksək olan 2,5 Gbit/s-lik buraxma zolağı təqdim etmək mümkündür. GPON avadanlığı ilə bir binaya gələn tək bir optik xətt splitterlər (ayırıcılar) vasitəsilə 256 abonentə xidmət göstərəcək. Bundan əlavə, bu avadanlıqlar abonentlərə bir xətlə iki telefon nömrəsini işlətmək imkanı verir.

Həmçinin bu üsuldan istifadə olunması yüksəksürətli internetin əhatə dairəsini genişləndirməyə və şəbəkənin qurulmasını tezləşdirməyə şərait yaradır.

Məlumatda bildirilir ki, bir sıra inkişaf etmiş ölkələrdə geniş şəkildə tətbiq edilən bu üsul özünü doğruldub. Bu sistem yuxarıda qeyd olunanlardan əlavə, həm də evdən iş yerinin idarə edilməsi, iş yerinə vizual nəzarət, elektron təhsil almaq, e-ticarət, bütün bank ödənişlərini və köçürmələrini həyata keçirmək kimi məhdudiyyətsiz imkanlara malikdir.

Cari ilin ilk 6 ayı ərzində 13 mənzilə və yeni tikilən 3 çoxmənzilli yaşayış binasına fiber-optik kabel xətləri çəkilib. Ümumilikdə, layihə çərçivəsində 48 fərdi mənzilə, 6 çoxmənzilli yaşayış binasına optik xətt çəkilib.

Qeyd edək ki, layihənin icrasına 2012-ci ilin avqustundan başlanılıb.

**Xəbərlər şöbəsi**

# Hər gün bir yenilik

## Şərurun hüsnünü daha da gözəlləşdirən budur

*...Nə qədər cəld tərpənsəm də, operativ işləməyə səy göstərsəm də, Şərur haqqında hazırladığım bu yazının əl-ayağını mümkün qədər tez yığışdırmağa çalışsam da, əmin olduğum şəksiz bir həqiqət var: bu yazı qəzetdə çap olunana qədər Şərurda, necə deyərlər, az qala bir qəzetlik yenilik olacaq. Yox, elə çıxmasın ki, mən yazı üzərində həftələrlə işləmişəm. Qətiyyən. Məsələnin sirri, sehri, mahiyyəti ondadır ki, Şərurda həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq və quruculuq işlərinin sürəti, həyata keçirilən tədbirlərin dinamikası ilə ayaqlaşmaq, sadəcə olaraq, qeyri-mümkündür. Səbəbi isə çox sadədir: Şərurda sürət və dinamika aylarla, illərlə yox, həftələrlə, günlərlə, hətta saatlarla ölçülür.*

Ola bilsin ki, bu dediklərimiz kimlər üçünsə inandırıcı görünməz, möcüzə, fantastika təsiri bağışlayar. Bax belə yerdə yaxşı deyiblər: həqiqət fakta söykənir. Elə isə buyurun, mən sizi fakt və həqiqətlərlə üz-üzə qoyuram.

Bir əlavəm də var: qoy həssas oxucu bizi fakt və rəqəmlərin çoxluğuna görə qınamasın. Son illər Şərurda həyatın bütün sahələrində əldə edilən görünməmiş inkişaf və irəliləyişi, rayonda tikilən sosial obyektləri, salınan parkları, xiyabanları, küçə, yol və körpüləri, əhalinin sosial ehtiyaclarının daha da dolğun ödənilməsi istiqamətində görülən genişmiqyaslı tədbirləri, müasir və yüksək zövqlə qurulmuş, yaradılmış əsrarəngiz gözəllikləri göstərməyin, təqdim etməyin başqa yolunu görmədik...





### Hər sahədə yüksəliş, hər sahədə uğur var

7 aprel 2014-cü il. Şərurluların yaddaşına ən xoş xatirələrlə həkk olunmuş unudulmaz bir gün. Həmin gün ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində rayonda "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimində iştirak etmiş və ictimaiyyət nümayəndələri ilə görüşdə demişdir: ***"Bu gün Naxçıvanda əlamətdar bir gündür. Biz "Arpaçay-1 və 2" su elektrik stansiyalarının açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu hadisə bir daha onu göstərir ki, bu gün Naxçıvan inamla, uğurla inkişaf edir. Naxçıvanda böyük infrastruktur layihələri icra edilir. Respublika çox dinamik inkişaf dövrünü yaşayır".***

Təbii ki, ölkə başçısının görülüb başa çatdırılmış işlərə verdiyi yüksək qiymət şərurlulara qol-qanad verir, onları ikiqat-üçqat səy və fədakarlıqla çalışmağa ruhlandırır. Bütün bunlar isə özünü cari ilin birinci yarısında əldə edilmiş konkret nəticələrdə göstərir. Bu dövrdə "Naxçıvan Bank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzinin binaları istifadəyə verilib. Şərur şəhərində əl topu oyunları idman meydançasının, Texniki Peşə-Təlim Mərkəzi binasının tikintisi, Şərur şəhər icra nümayəndəliyinin, Şərur bələdiyyəsinin və Məşğulluq Mərkəzinin yerləşəcəyi inzibati binanın yenidən qurulması davam etdirilir.

Həyata keçirilən tikinti-quruculuq işlərinin sırasına Şərur şəhərinin və rayon mərkəzinə yaxın bütün kəndlərin içməli su və kanalizasiya sisteminin yenidən qurulması da daxildir. Böyük həcmdə dövlət vəsaiti hesabına başa gələcək bu layihə icra olunduqdan sonra əhali fasiləsiz və ekoloji cəhətdən təmiz içməli su ilə təmin ediləcək.

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərinin bir istiqamətini də yaşayış binalarının təmir olunması və yenidən qurulması təşkil edir. Bu tədbirlərin davamı olaraq, Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 7 nömrəli, 18 mənzilli binada əsaslı təmir işləri aparılır.

Ümumiyyətlə, rayonda cari ilin ilk 6 ayında bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilən investisiyaların həcmi 35 milyon 882,3 min manat olub. Bunun sayəsində tikinti-quruculuq işləri Şərurun kəndlərində də geniş vüsət alıb. Belə obyektlərdən biri yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin Cəlilkənddəki fəaliyyətini özündə əks etdirən muzey üçün yeni binanın inşa olunmasıdır. Muzey binasına yaxın ərazidə isə mədəniyyət evi, xidmət mərkəzi yenidən qurulur və tarixi abidə – Buzxana əsaslı təmir olunur.

Kürkənddə 216, Diyadində 88, Püsyanda 630, Dizə və Axurada 198 şagird yerlik məktəb binaları yenidən qurulur, Kürkənd və Diyadində kənd və xidmət mərkəzləri, Püsyanda həkim ambulatoriyası və kənd mərkəzi, Dizədə həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, Çomaxturda iki məhdud fiziki imkanlı şəxs üçün fərdi ev inşa edilir, Dəmirçiyə içməli su xətti çəkilir.

Bir sözlə, Şərur bu gün dinamik inkişaf yolundadır. Rayon mərkəzində, yaxın və uzaq kəndlərdə də hər gün bir yenilik duyulur, yaşayış məntəqələri daha gözəl, daha yaraşıqlı görkəm alır.

### Aqrar sahə: göstəricilər uğurludur

Şərurun iqtisadi həyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən bir az da bu sahə haqqında yazmaq istərdim. Rayonda aqrar sahədə qazanılan uğurlar ildən-ilə artmaqdadır. Kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara yardım və kreditlərin verilməsi bu sahənin inkişafına zəmin yaradıb. Belə ki, 2014-cü ilin ilk 6 ayında 359 nəfər torpaq mülkiyyətçisinə 349 min 40 manat yardım edilib və 925 min 300 kiloqram mineral gübrə paylanıb. Bunlarla yanaşı, kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 26 ədəd müxtəlif kənd təsərrüfatı texnikası lizinq yolu ilə satılıb. Göründüyü kimi, aqrar sahənin inkişafına yönəldilmiş dövlət proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün yaradılmış əlverişli şəraitin nəticəsi olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının maşın və mexanizmlərlə, toxum və gübrə ilə təminatı yaxşılaşdırılıb.

Görülən məqsədyönlü tədbirlər nəticəsində bu ilin məhsulu üçün 17 min 112 hektar sahədə əkin aparılıb ki, bunun da 9 min 184,1 hektarını taxıl zəmiləri təşkil edib. Biçin vaxtında başa çatdırılıb, 28249 ton taxıl istehsal olunub. Bu, hər hektardan 30,8 sentner məhsul deməkdir. 752 hektar sahədə kartof, 1569 hektar sahədə tərəvəz, 623 hektar sahədə qarğıdalı, 489 hektar sahədə paxlalı bitkilər, 30 hektarda günəbaxan, 471 hektar sahədə bostan bitkiləri də aqrotexniki qaydada becərildiyindən bol məhsul yetişdirilib. İndiyədək tarlalardan 8401 ton kartof, 13964 ton tərəvəz yığılıb, bağlardan 13 min 30 ton meyvə dərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, bu sahədə işlər davam etdirilib, yaz aylarında 6 hektar yeni bağ salınıb, 10 hektar meyvə bağında bərpa işləri aparılıb.

### Faktlar, həqiqətlər

Yuxarıda qeyd etdiyim kimi, həqiqət fakta söykənir. Beləliklə, iqtisadi, sosial və mədəni sahələrdə əldə edilən yüksəlişi əks etdirən yüzlərlə fakt və rəqəmlərdən yalnız bir hissəsini oxucuların nəzərinə çatdırıram.

2014-cü ilin birinci yarısında keçən ilin müvafiq dövrünə nisbətən sənaye məhsulu 1,8 faiz artaraq 43 milyon 586,4 min manata, kənd təsərrüfatı məhsulları 5,2 faiz artaraq 38 milyon 862,2 min manata, pərakəndə əmtəə dövriyyəsi 2,3 faiz artaraq 103 milyon 400,4 min manata, əhaliyə göstərilən pullu xidmətlər 4 faiz artaraq 16 milyon 503,4 min manata, nəqliyyatda yük daşınması 2,1 faiz artaraq 881,4 min tona çatıb. Tikinti işlərinin həcmi 2,5 faiz artaraq 33 milyon 492,1 min manat olub. Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 4,4 faiz artaraq 364,4 manat təşkil edib. 2009-cu ildən bəri rayonda 2 min 913 yeni iş yeri açılıb ki, bunun da 351-i cari ilin ilk 6 ayının payına düşür.

İlin birinci yarısında ötən ilin müvafiq dövrünə nisbətən poçt və rabitə müəssisələri tərəfindən 1,8 faiz çox xidmət göstərilib. Cari ilin ilk 6 ayında pensiyaların vaxtında ödənilməsi təmin edilib, 3 milyon 331 min 846 manat məcburi dövlət sosial sığorta haqqı yığılıb. Bu, əvvəlki ilin müvafiq dövründən 573 min 79 manat çoxdur. Azərbaycanın ərazi bütövlüyü uğrunda əlil olmuş 2 vətəndaşa, 1 nəfər müharibə əlilinə, 1 nəfər Çernobıl qəzası əlilinə, 3 nəfər hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxsə "NAZ-Lifan" markalı minik avtomobilləri verilib.

### Heydər Parkı sakinlərin ən gözəl istirahət məkanıdır

Şərurluları xalqımızın ümummilli lideri Heydər Əliyevlə qırılmaz tellər bağlayır. Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ulu öndər Heydər Əliyev Şərura da həmişə böyük qayğı göstərib. Buna görə də Şərur şəhərinin mərkəzində, Heydər Əliyev prospektində salınan parka xalqımızın böyük oğlu Heydər Əliyevin adının verilməsi ümummilli liderimizə şərurluların hörmət və ehtiramının daha bir ifadəsidir.

İsti, bürkülü yay günləri davam edir. Şərurlular dincəlməyə, istirahət etməyə parka gəlirlər. Bu günlərdə biz də yolumuzu həmin məkandan saldıq.

Xalqımızın ümummilli liderinin əziz xatirəsinə sonsuz hörmət və ehtiramın ifadəsi olan Heydər Parkı bir sənət əsəri təsiri bağışlayır. Burada daş üstə qoyulan hər daşın, görkəmi ilə seçilən hər nadir ağacın, rənginə, ətrinə görə yerləşdirilən hər gülün-çiçəyin sözlə ifadə olunmayan öz mənası, öz anlamı var.

İstirahət edən, dincələn insanlara yaxınlaşıram. Bir nəfər uzaqdan diqqətimi cəlb edir. Dərhal tanıyıram. Bu, Azərbaycan Respublikasının əməkdar müəllimi, Muğanlı kənd tam orta məktəbinin direktoru İsa Hüseynovdur. İsa müəllim deyir:

– Yurdumuzun torpağı münbit, suyu bol, havası saf, adamları sadə, mehriban, zəhmətkeş və qədirbiləndirlər. Bu gün Şərurda elə bir insan tapmaq mümkün deyil ki, ürəyində ulu öndər Heydər Əliyevə sonsuz məhəbbət yaşatmasın. Hələ ötən əsrin 70-ci illərində Şərurdakı mənzərə indiki yaşlı nəslin yaddaşına pozulmaz şəkildə həkk olunub. O illərdə bölgə sakinlərinin həyat tərzi müqayisəedilməz dərəcədə dəyişdi. Rayon mərkəzində, kəndlərdə çox sayda yaraşıqlı evlər tikildi, yüzlərlə kəndli minik avtomobili aldı. Övladlarımızın SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün geniş imkanlar açıldı. Odur ki, indi mühüm dövlət postlarında, ölkə iqtisadiyyatının həlledici sahələrində çalışan yüzlərlə, minlərlə yüksəkixtisaslı kadrlar müdrik rəhbər Heydər Əliyevin qayğısını həmişə minnətdarlıqla xatırlayırlar.

Mən hər gün bu parka gəlirəm. Bizim kəndlə buranın arası 7-8 kilometr olar. Parkda yaradılan şərait, səliqə-sahman məni heyran edir. Bu uşaqlar nəvələrimdir. Bakıdan gəliblər. Deyirlər ki, sizin park Bakının parklarından heç də geri qalmır. Bu sözləri eşidəndə, əlbəttə, adamın ürəyi dağa dönür.

Parkı gəzirəm. Hər addımda qarşılaşdığım insanların gözlərində, çöhrəsində işıq, rahat, qayğısız həyat və yaşayışdan doğan xoşbəxt bir təbəssüm, sabaha olan böyük inam və ümid qığılcımları görürəm...

### Regional inkişafın aydın üfüqləri

*Bəli, Şərurda həyat qaynayır. Bu gün çəkilən zəhmət, axıdılan alın təri tezliklə öz fərəhli bəhrələrini verəcək, daş üstə qoyulan hər daş gözoxşayan binaya çevriləcək, əkilən hər ağac, hər gül kolu, abadlaşan hər küçə, yenidən qurulan hər park Şərurun gözəlliyinə yeni naxışlar vuracaq. Görülən işlərin miqyası və dinamizmi, adamların yüksək əhval-ruhiyyəsi, ümumi yüksəliş ab-havası onu göstərir ki, sosial-iqtisadi inkişafımıza xidmət edən proqramlar uğurla həyata keçiriləcəkdir: yetər ki, məqsədin aydın, niyyətin xoş olsun.*

*Sonda yadıma son vaxtlar Şərurda tez-tez eşitdiyim sözlər düşür: belə getsə, bir-iki ilə Şəruru nəinki qonaqlar, heç özümüz də tanımayacağıq. Regional inkişafın üfüqləri aydın görünür.*

**Cəfər ƏLİYEV**

# Muxtar respublikada taxıl biçini başa çatıb

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, 2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilib. Bunun da 29697,7 hektarı hektarında buğda, 9475,6 hektarında isə arpa əkilib. Sahələrdə bol məhsul yetişdirilib. Əvvəlcədən həyata keçirilən tədbirlər taxıl tədarükünü optimal müddətdə başa çatdırmağa və məhsulu itkisiz toplamağa imkan verib. Taxıl tədarükündə ilk yerdə Şərur rayonu gedir. Bu bölgədə məhsuldarlıq 30,8 sentner olub. Rayonun taxılçıları 9184,1 hektar sahədən 28 min 249 ton məhsul toplayıblar. Babək rayonu 30,6 sentnerlə ikinci yerdədir. Rayonun taxılçıları 10 min 364,8 hektar sahənin məhsulunu tədarük edərək 31 min 725 ton məhsula sahib olublar. Sərhəd bölgəsi Sədərək rayonunda 2130,2 hektar sahədən 6146 ton 27,9 sentner təşkil edib. Ordubad rayonunda məhsuldarlıq 26,9 sentner olub. Bölgənin taxılçıları 2147,9 hektar sahədən 5772 ton məhsul tədarük ediblər. Naxçıvan şəhərinin kəndlərində məhsuldarlıq 26,8 sentnerə çatdırılıb. 1229,1 hektar taxıl zəmisindən 3290 ton məhsul tədarük olunub. Culfa rayonunda taxıl üçün ayrılmış 5085,6 hektar sahədən məhsuldarlıq 26 sentner olmaqla, 13209 ton məhsul götürülüb. Kəngərli rayonunda isə məhsuldarlıq 25,7 sentner olub. Bölgənin taxılçıları 4277 hektar sahədən 10972 ton məhsula sahib olublar. Ümumilikdə, muxtar respublikada 103 min 70 ton məhsul tədarük edilib. Bunun 77 min 288 tonu buğda, 25 min 782 tonu arpadır. Məhsuldarlıq 28,8 sentnerdir.

### 2014-cü ildə Naxçıvan Muxtar Respublikası üzrə taxıl yığımı haqqında məlumat

| | Əkin sahəsi, hektarla | o cümlədən | | Yığılan məhsul, tonla | o cümlədən | | Məhsuldarlıq sentner/ha | o cümlədən | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | buğda | arpa | | buğda | arpa | | buğda | arpa |
| Naxçıvan şəhəri | 1229,1 | 1024,6 | 204,5 | 3290 | 2722 | 568 | 26,8 | 26,6 | 27,8 |
| Şərur rayonu | 9184,1 | 7313,8 | 1870,3 | 28249 | 22761 | 5488 | 30,8 | 31,1 | 29,3 |
| Babək rayonu | 10364,8 | 7777,8 | 2587 | 31725 | 24164 | 7561 | 30,6 | 31,1 | 29,2 |
| Ordubad rayonu | 2147,9 | 1307,7 | 840,2 | 5772 | 3572 | 2200 | 26,9 | 27,3 | 26,2 |
| Culfa rayonu | 5085,6 | 4046,2 | 1039,4 | 13209 | 10963 | 2246 | 26,0 | 27,1 | 21,6 |
| Kəngərli rayonu | 4277,0 | 2647,2 | 1629,8 | 10972 | 6548 | 4424 | 25,7 | 24,7 | 27,1 |
| Şahbuz rayonu | 1331,0 | 1010,3 | 320,7 | 3707 | 2998 | 709 | 27,9 | 29,7 | 22,1 |
| Sədərək rayonu | 2130,2 | 1146,5 | 983,7 | 6146 | 3560 | 2586 | 28,9 | 31,1 | 26,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **35749,7** | **26274,1** | **9475,6** | **103070** | **77288** | **25782** | **28,8** | **29,4** | **27,2** |

# Azərbaycan Kinosu Günü qeyd olunub

Avqustun 2-də Azərbaycan Kinosu Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Film Fondunda tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri Sarvan İbrahimov "Azərbaycan kinosu xalqımızın tarixinin salnaməsidir" mövzusunda çıxış edib. Bildirib ki, 116 il bundan əvvəl yaranan milli kinomuzda xalqımızın tarixi, milli-mənəvi dəyərləri, insan və onun cəmiyyətdəki mövqeyi başlıca mövzulardan olub. Yarandığı gündən insanların dünyagörüşünü formalaşdıran, xalqın tarixini, milli adət-ənənələrini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən Azərbaycan kinosu milyonlarla insanın qəlbinə yol taparaq sevilən bir sənətə çevrilib. Azərbaycan kino sənəti, bütövlükdə, tamaşaçıların estetik zövqünün formalaşmasında mühüm rol oynamaqla, milli ruhun qorunması işinə xidmət edir, yüksək tərbiyəvi əhəmiyyət daşıyır.

Qeyd olunub ki, milli kino sənətimiz görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində əsl inkişaf və tərəqqi dövrünü yaşayıb. Bu dövr Azərbaycan kinosunun ən çox film istehsal olunan illəri kimi mədəniyyət tarixinə düşüb. Bu isə dahi rəhbərin kino sənətimizə, incəsənət və kino sahəsində çalışan insanlara göstərdiyi diqqət və qayğı sayəsində mümkün olub.

Müstəqillik illərində də kino sənətinə ulu öndər xüsusi qayğı və diqqət göstərirdi. Bu dövrdə ölkəmizdə "Şərq-Qərb" Beynəlxalq Kino Festivalı keçirilib, "Kinematoqrafiya haqqında" Qanun qəbul edilib.

Bildirilib ki, ümummilli liderimizin kino sənətimizin inkişafı ilə bağlı gördüyü işlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının "Kino sənətinin inkişafı haqqında" 2007-ci il 23 fevral tarixli Sərəncamı, "Azərbaycan kinosunun 2008-2018-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi bu işlərin ardıcıl və davamlı olduğunu göstərir. Ölkəmizdə kino sənətinin inkişafı üçün mühüm tədbirlər görülür, kinoya ayrılan maliyyə vəsaiti ilbəil artırılır, kino sənəti işçilərinə qayğı göstərilir.

Tədbirin sonunda son illərdə bərpa edilmiş "Arşın mal alan" filmi nümayiş etdirilib.

**Əli RZAYEV**



# Ağbulaq İstirahət Mərkəzi uşaq və gənclərin sevimli məkanıdır

***Dövlətin sosial siyasətinin mexanizmləri arasında insanların asudə vaxtının səmərəli təşkili məsələləri mühüm yer tutur. Əhalinin bütün təbəqələrinin – yaşlıların, məhdud fiziki imkanlıların, uşaq və gənclərin mənalı istirahətlərinə təmin olunması, bütövlükdə, cəmiyyətin insan inkişafı indeksi göstəricilərində arzuedilən nəticələrə gətirib çıxarır. Artıq bütün dünyada insanın ömür uzunluğunun, keyfiyyətli həyat şəraitinin onun asudə vaxtının necə keçirilməsindən bilavasitə asılı olduğunu hamı yaxşı bilir və cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, hər bir kəsin bundan maksimum dərəcədə faydalanmasına çalışılır. Sosial turizm kimi də tanınan və dövlətin müxtəlif əhali qruplarını əhatə edən belə qayğısını artıq muxtar respublikamızın uşaq və gəncləri, hərbçi ailələri, məhdud fiziki imkanlı insanları yaxından hiss etməkdədirlər. Ağbulaq İstirahət Mərkəzində indiyə qədər istirahət edib dincələn yüzlərlə məktəbli və gəncin təəssüratları bunu bir daha təsdiq edir.***






Şübhəsiz, səyahət edib dincəlmək, fiziki və mənəvi rekreasiya tələbatını ödəmək üçün turizm səfərlərinə yollanmaq çox uğurlu seçimdir və bu zaman alınan təəssürat insanın yaşayış yerindən fərqli olaraq daha yaddaqalan olur. Dünyada hər il milyonlarla insanı turizm səfərlərinə çəkən də məhz bu qüvvədir. Əgər istirahət etmək üçün vaxt varsa və bunun üçün lazımi şərait yaradılmışdırsa, onda turizmin fenomen gücü özünü göstərəcəkdir. Bunun səmərəsindən məqsədyönlü şəkildə istifadə olunması isə bilavasitə dövlətin nəzarətilə müvafiq qurumların həyata keçirdikləri tədbirlərlə yerinə yetirilir. Bu ilin yay turizm mövsümü başlanandan bəri Ağbulaq İstirahət Mərkəzinə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası xətti ilə istirahətə gedənlər də dövlətin onlara göstərdiyi belə qayğını yaxından hiss edirlər. Ötən həftə mərkəzə baş çəkərkən burada istirahət edən uşaqlarla görüşüb təəssüratlarını öyrəndikcə inkişaf edən ölkəmizin hər guşəsində olduğu kimi, doğma Naxçıvanda da insanların xoşbəxt yaşayışı üçün hər şəraitin yaradıldığının bir daha şahidi olduq.

Naxçıvan Muxtar Respublikasında insanların asudə vaxtlarında gəzib-görməli, istirahət edib əylənmələri üçün yerlər çoxdur. Ancaq sürətli inkişafın axarına uyğun olaraq, sosial qayğıya ehtiyacı olan insanların təbiətlə sıx ünsiyyətdə, müasir tələblərə cavab verən bir şəraitdə istirahətinin təşkili mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz, indi çoxları özünün asudə vaxt imkanlarına və mədəni istirahəti təşkiletmə bacarığına görə buna müstəqil təşəbbüs edir, məzuniyyət dövründə, həftəsonu günlərində muxtar respublikamızın bir çox yerlərinə ailəsi, dost-tanışları ilə birgə səfərlər edib dincəlirlər. Regionda yol infrastrukturunun tamamən yenidən qurulması, əhalinin həyat səviyyəsinin yüksəlməsi kimi amillər də burada özünü göstərir və bu proses yaxşı bir hal kimi ildən-ilə daha da kütləviləşir. Ancaq diqqətçəkən bir cəhət burada istirahət turlarının təşkilati deyil, fərdi təşəbbüslərlə təşkil olunmasıdır ki, bu zaman da adamları narahat edən bir sıra suallar, yaranan bəzi xoşagəlməz hallar və gözlənilən uzaq nəticələr yenə də məsələni təşkilati turizmin əhəmiyyətinə qaytarır ki, bu da Ağbulaq İstirahət Mərkəzi kimi modern bir məkanda təşkil olunan istirahət turlarında özünü göstərir.

Ötən həftə Ağbulaq İstirahət Mərkəzində olarkən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının xətti ilə buraya istirahətə gəlmiş növbəti məktəbli qrupu ilə tanışlıq imkanı əldə etdik. Muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş məktəblilərin burada qaldıqları bir həftə ərzində hər gün yaddaqalan tədbirlər, oyunlar, yarışlar keçirilib. Şübhəsiz, dəniz səviyyəsindən təqribən 2 min metr yüksəklikdə, yaşıl təbiətin qucağında keçirilən hər gün onların yaddaşında uzun müddət qalacaqdır. Bu isə gənclərin sağlam və gümrah böyüməsində olduğu kimi, onların tərbiyəsində də mühüm əhəmiyyətə malikdir. Çünki birgünlük tələm-tələsik, proqramsız təşkil olunan gəzintilərdən fərqli olaraq, belə istirahət mərkəzlərində mütəşəkkil formada keçirilən istirahət turları öz məqsədyönlülüyü ilə digərlərindən çox fərqlənir. Belə ki, burada müxtəlif yaşdan olan məktəblilərin bir-biri ilə dostluq qurması, onların təbiətlə birbaşa ünsiyyət yaradaraq müxtəlif ekskursiya marşrutlarına yollanması üçün əlverişli şərait vardır. Burada tərbiyəçilər tərəfindən təşkil olunan kollektiv yarış və oyunlar, Naxçıvanın görməli yerləri ilə tanışlıq, Şahbuz Dövlət Təbiət Qoruğuna, Batabat Astrofizika Rəsədxanasına edilən ekskursiyalar zamanı uşaq və gənclərə verilən informasiya onların gələcəkdə hərtərəfli şəkildə formalaşması, dünyagörüşünün artması üçün çox əhəmiyyətlidir. Bütün bu tədbirlər isə istirahət mərkəzindəki Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının nümayəndəsinin nəzarəti altında həyata keçirilməkdədir. Mərkəzdə hər bir məktəbliyə ciddi diqqət göstərilməkdə, hər gün fərdi qaydada onların sağlamlığına nəzarət edilməkdədir. Bu isə çox vacibdir. Çünki sağlam və hərtərəfli formalaşmış gənc nəsil yetişdirmək dövlətimizin ən əsas qayğılarından biridir. Bu qayğını isə onlar hər yerdə – təhsildə, təlim-tərbiyədə gördükləri kimi, asudə vaxtlarında da yaxından hiss edirlər. Elə bu qayğının nəticəsidir ki, Ağbulaq İstirahət Mərkəzi artıq uşaq və gənclərin sevimli məkanına çevrilmişdir.

*Naxçıvan təbii ehtiyatlarla zəngin, inkişaf edən bir regiondur. Bu sərvətlərimizin gələcəkdə daha dayanıqlı və daha dəyərli olması isə onların insan resurslarımız istiqamətində sərf edilməsidir. Çünki bu gün uşaq və gənclərimizin mənalı istirahətinə, sağlamlığına və vətənpərvər ruhda tərbiyəsinə çəkilən bütün xərc gələcəyimizin ən dəyərli yatırımıdır.*

✍ **Əli CABBAROV**

# DSMF tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilir

***Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu milli sosial-iqtisadi inkişaf modelinin unikallığı onunla şərtlənir ki, ölkədə iqtisadiyyatın inkişafı üçün atılan hər bir addım əhalinin aztəminatlı təbəqəsinin maraqlarını inkar etmir, bu təbəqənin mənafeyi ilə uzlaşdırılır. Bu məqsədlə ulu öndər Heydər Əliyev tərəfindən aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən çoxlu sayda fərman və sərəncam imzalanmışdır.***

Bu sərəncamlardan biri də "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"nı təsdiq edən 2001-ci il 17 iyul tarixli Sərəncamdır. Bu konsepsiya Azərbaycanın müasir və beynəlxalq standartlara tam cavab verən sığorta-pensiya modelini ortaya qoymuşdur. Bu model pensiyaçıların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin olunması məqsədilə pensiya ödənişlərinin etibarlı maliyyə təminatına nail olunması, pensiya təminatı sisteminin bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması və onun rolunun artırılması, pensiya və müavinət ödənişləri üçün nəzərdə tutulan vəsaitin tam yığılması və məqsədyönlü istifadəsi, pensiya təminatı sisteminin idarə olunmasını təkmilləşdirməklə onun səmərəliliyinin yüksəldilməsi, sosial sığorta haqları ilə ödənişlər arasındakı əlaqənin uyğunlaşdırılması kimi mühüm problemlərin həllinə xidmət etməkdədir.

Müstəqillik dövründə Azərbaycanda sosial müdafiə sistemi beynəlxalq standartlar əsasında keyfiyyətcə yenidən qurulmuş və iqtisadi artımla sosial xərclərin artımının balanslaşdırılmasının daimi olaraq diqqət mərkəzində saxlanılması vətəndaşların yaşayış səviyyəsinin müasir mexanizmlər əsasında yüksəldilməsini təmin etməkdədir. Bu gün Azərbaycanda vahid prinsiplər əsasında fəaliyyət göstərən və ölkənin bütün işləyən əhalisini əhatə edən, təyin olunan pensiyaların məbləğinin sistemə ödənilmiş və fərdi uçotu aparılmış sosial sığorta haqlarına bağlı olan müasir sığorta-pensiya sistemi formalaşdırılmışdır. 2006-cı il yanvarın 1-dən tətbiq edilən sığorta-pensiya sistemi əmək pensiyalarının baza hissəsinin bütün pensiyaçılar üzrə bərabər məbləğdə artırılmasını, sığorta hissəsinin isə istehlak qiymətləri indeksi nəzərə alınmaqla, indeksləşdirilməsini nəzərdə tutur. Beləliklə, ölkədə ilk dəfə olaraq istehlak qiymətləri indeksinin illik səviyyəsinə, yəni inflyasiyaya uyğun indeksləşdirmə aparılmasına başlanılmışdır.

Sosial müdafiə sahəsində həyata keçirilən islahatlar bu sahədə informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqini zəruri edirdi. Ona görə də müasir standartlara uyğun avtomatlaşdırılmış pensiya təyinatı, sığorta-pensiya sisteminin fəaliyyətində müasir İKT-nin geniş tətbiqinə nail olunması ölkə Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nın əsas vəzifələri sırasına daxil edilmişdir. Bu baxımdan həmin proqramın 2.31-ci bəndinə əsasən, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) aparatı və yerli orqanları arasında elektron məlumat mübadiləsini təmin edən korporativ şəbəkənin qurulması fondun fəaliyyətinin avtomatlaşdırılması istiqamətində görülən işlərin əsasını təşkil edir.

İnformasiyanın əldə edilməsi, məlumata çıxışın təmin olunması müasir cəmiyyətimizdə ən vacib və mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Digər tərəfdən, informasiya-kommunikasiya texnologiyaları (İKT) əsri olan XXI əsrdə müasir texnologiyalar həyatımızın bütün sahələrinə sürətlə daxil olduğundan və İKT cəmiyyətin inkişafına təsir göstərən amillərdən biri sayıldığından müasir dövrdə innovativ inkişafa nail olmaq üçün İKT-nin tətbiqi başlıca şərtlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən 22 adda elektron xidmət göstərilməsi nəzərdə tutulmuşdur.

Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi elektron xidməti vasitəsilə sığortaedənlər məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsini həyata keçirə bilərlər. Elektron xidmətdən istifadə etmək üçün ***www.dsmf.nakhchivan.az*** saytına daxil olaraq Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısından "Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" elektron xidmətindən istifadə etmək mümkündür. Məcburi dövlət sosial sığorta haqlarının ödənişi real vaxt rejimində həyata keçirilir.

Bu gün Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısındakı "Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" xidməti vasitəsilə sığortaedənlərin məcburi dövlət sosial sığorta vəsaitlərini onlayn ödəmələrinə hər cür şərait yaradılıb. Bu ilin birinci yarısında bu xidmətdən 2 min 376 nəfərin istifadə etməsi də məhz sözügedən elektron xidmət vasitəsilə sığortaedənlər üçün rahatlığın təmin olunmasının nəticəsidir.

Dövlət Sosial Müdafiə Fondu bütün dövrlərdə fəaliyyətini çevik mexanizm və innovativ üsullar, habelə müasir informasiya texnologiyaları əsasında formalaşdırmışdır. Fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görülür. Elektron xidmətlər sığortaedənlərlə Dövlət Sosial Müdafiə Fondu orqanları arasında münasibətlərin sadələşdirilməsinə imkan yaradır, sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir.

Qeyd edək ki, elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən ardıcıl işlərdən biri də əhalinin sığorta-pensiya sistemi və bu sistem üzrə yaradılmış elektron xidmətlər barədə məlumatlandırılmasıdır. Bunun üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu yerlərdə maarifləndirici tədbirlər həyata keçirir. Əhalinin maarifləndirilməsi baxımından keçirilən tədbirlərin çox böyük əhəmiyyəti var. Çünki həmin tədbirlər nəticəsində ayrı-ayrı rayonlardan olan sığorta ödəyicilərinə və pensiyaçılara sığorta-pensiya sistemi, eləcə də elektron xidmətlər barədə ətraflı və geniş məlumatlar verilir. Davamlı maarifləndirmə işlərinin aparılması Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətində prioritet təşkil edir.

**Tayfun ZEYNALLI**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

# Qədim daş karxanaları

*Qədim Naxçıvan diyarı zəngin tarixə malikdir. Burada əldə olunan maddi-mədəniyyət nümunələri Naxçıvan ərazisinin qədim Daş dövründən başlayaraq ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir. Diyarımız antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə, ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəllərlə, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələrlə, digər tarixi abidələrlə zəngindir. Naxçıvanda belə qədim tarixə malik olan daşyonma sənəti də memarlığın ən mükəmməl nümunələrindən biridir. Bununla bağlı müsahibimiz AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyevadır.*

***– Sara xanım, istərdik, əvvəlcə daşyonma sənətinin tarixi haqda oxuculara məlumat verəsiniz.***

– Zəngin daş yataqlarına malik olan Naxçıvan ərazisinin sakinləri bir sıra yaşayış məskənlərində daşyonma mərkəzi yaratmış və bu mərkəzlərdə fəaliyyət göstərmişlər. Daşyonma mərkəzlərində bölgənin daş ehtiyatlarından xammal mənbəyi kimi istifadə edən sənətkarlar yaşadıqları dövrdə saxlanlaşdırılması mümkün olmayan çoxlu abidələr yaratmış və gələcək nəsillərə yadigar qoymuşlar. Hələ qədim zamanlardan ibtidai insanlar həyatlarında mühüm rol oynayan daşı ən qədim və təbii nemət kimi ilahiləşdirmiş və müqəddəs hesab etmişlər. Uzaq keçmişdən belə xammaldan məzar daşları da düzəldilməsi bunu bir daha sübut edir.

Bu sahə ilə məşğul olan tədqiqatçılar öz araşdırmalarında Azərbaycanda, o cümlədən qədim Naxçıvan bölgəsində daşyonma sənətinin tarixi, keçdiyi inkişaf yolu haqqında maraqlı məlumatlar vermişlər. Orta əsrlər zamanı Naxçıvan ərazisində daşyonma sənətinin inkişaf etməsi və daha da təkmilləşməsi bölgədə bir sıra daş karxanalarının, daşyonma mərkəzlərinin, sənətkar sexlərinin yaranmasına səbəb olmuşdur. Bu mərkəzlərdə Naxçıvan ərazisinin zəngin daş yataqlarında olan bir çox daş növündən istifadə edilmişdir. Xüsusən çaydaşı, dağdaşı, tuf, mərmər və sair kimi möhkəmliyi və görkəmi ilə fərqlənən, həmçinin memarlıq üçün böyük əhəmiyyət daşıyan daşlardan peşəkar sənət adamları sənət əsərləri yaratmışlar.

***– Naxçıvanda fəaliyyət göstərmiş daşyonma mərkəzləri ilə bağlı nə deyə bilərsiniz?***

– Daşyonma mərkəzləri Naxçıvanın bir çox yaşayış məskənlərində fəaliyyət göstərmişdir. Bu mərkəzlərin çoxluq təşkil etdiyi ərazilər, əsasən, indiki Ordubad və Culfa rayonları olmuşdur. Bu isə həmin bölgələrdə müxtəlif daş növlərinin zənginliyindən irəli gəlmişdir. Ordubad rayonunun Biləv kəndinin yaxınlığında, Yalquzaq deyilən yerdə, "Gümüş ağılı", "Mahmud ağılı" adı ilə tanınan ərazidə daşyonma mərkəzləri fəaliyyət göstərmişdir. Həmçinin bu ərazidəki "Qarovulxana", "Arpaçuxuru", "Südyolu" adlandırılan yerlərdə də daşyonma mərkəzlərinin fəaliyyət göstərməsi haqqında məlumatlar vardır.

Daşyonma mərkəzlərinin indiki Culfa şəhəri və ona yaxın kəndlərdə fəaliyyəti haqqında maraqlı məlumatlar mövcuddur. Aparılan araşdırmalar göstərir ki, indiki Culfa rayonunun şimal-şərqində, "Darıdağ" mineral su mənbəyinin yaxınlığında, təqribən, 2 kilometr aralı, yolun sağ tərəfində daşyonma mərkəzi fəaliyyət göstərmişdir. Ərazidə olan böyük daş ehtiyatları burada qədim zamanlardan daşyonma sənətinin inkişafı üçün zəmin yaratmışdır. Həmin ünvanda iş prosesində sıradan çıxmış və yaxud keyfiyyəti ustanı təmin etmədiyindən işi yarımçıq qalmış çoxlu dəyirman daşları, sənduqətipli qəbirüstü xatirə abidələri vardır.

***– Sara xanım, bu sənətin inkişafı, əsasən, hansı dövrlərdən başlayır?***

– Daşyonma sənətinin izlərinə təkcə Naxçıvan ərazisində deyil, bütün türkdilli xalqlar yaşayan bölgələrdə rast gəlinmişdir. Daşişləmə sənətinin ən qədim nümunələrinə daş və qayalar üzərində rast gəlinir. Tədqiqatçı alimlər bunun əsas səbəbini insanların məişətində daşın xüsusi rol oynaması ilə əlaqələndirirlər. Ulu əcdadlarımız ov səhnələrini, onunla bağlı əfsanəvi təsəvvürlərini bu təsvirlər vasitəsilə canlandırmağa çalışmışlar. Buradan görünür ki, insanların ən qədim bədii yaradıcılıq növlərindən biri də daş üzərində təsvirlərin işlənməsi sənəti olmuşdur. Tarixin müxtəlif inkişaf dövrlərində tikinti işlərinin çoxalması ilə əlaqədar daşişləmə sənətinin tətbiqi istiqamətləri genişlənmişdir. Daşdan məişət əşyaları hazırlanmasında, yaşayış və müdafiə istehkamlarının inşasında geniş istifadə edilməyə başlanmışdır. Feodalizm dövründə isə Azərbaycanda daşyonma – daş üzərində oyma sənəti xüsusilə daha çox tərəqqi etmişdir. Azərbaycan ərazisində məhəlli xüsusiyyətləri ilə fərqlənən bir sıra memarlıq məktəblərinin əmələ gəlməsi və onların çoxcəhətli səmərəli fəaliyyətləri ənənəvi daşişləmə sənətini daha da zənginləşdirmişdir. Azərbaycan xalqının orta əsrlər dövründən günümüzədək tarixi keçmişini özünün daş yaddaşında yaşadan və əsaslı mənbələr verən məzar daşları bütün dövrlər üçün çox qiymətli sənət əsərləridir.

**Müsahibəni apardı:**
**✍ Sona MİRZƏYEVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1110 | 66,6 | 67,0 | 100,6 |
| 2. | Culfa rayonu | 1156 | 69,3 | 69,7 | 100,6 |
| 3. | Şahbuz rayonu | 332 | 19,9 | 20,0 | 100,5 |
| 4. | Kəngərli rayonu | 566 | 34,0 | 34,1 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 3925 | 235,5 | 235,5 | 100,0 |
| 6. | Şərur rayonu | 1928 | 115,7 | 115,7 | 100,0 |
| 7. | Babək rayonu | 1925 | 115,5 | 115,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 295 | 17,7 | 17,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 32145 | 1928,7 | 1928,8 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **43382** | **2602,9** | **2604,0** | **100,0** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 43 milyon 382 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 602 min 900 manat olmuş, cəmi 2 milyon 604 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin iyul ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 339089 | 33909 | 37119 | 109,5 |
| 2. | Şahbuz rayonu | 218152 | 21815 | 22654 | 103,8 |
| 3. | Sədərək rayonu | 82231 | 8223 | 8489 | 103,2 |
| 4. | Kəngərli rayonu | 237142 | 23714 | 24171 | 101,9 |
| 5. | Şərur rayonu | 546619 | 54662 | 55364 | 101,3 |
| 6. | Naxçıvan şəhəri | 1034796 | 103480 | 103796 | 100,3 |
| 7. | Ordubad rayonu | 383260 | 38326 | 38426 | 100,3 |
| 8. | Babək rayonu | 677021 | 67702 | 67752 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3753348 | 375263 | 338014 | 90,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **7271658** | **727094** | **695785** | **95,7** |

## Yayın ikinci dövrü: quyruq dondu, yoxsa doğdu?

Xalq arasında yayın ortası, yay fəslinin yarı olan günü "quyruqdoğdu" adlanır. "Quyruqdoğdu" avqust ayının 5-nə təsadüf edir. El arasında deyərlər ki, bu dövr səmada quyruğa oxşayan ulduzların görünməsinə uyğun olaraq, bu cür adlandırılmışdır. Təsərrüfatın bütün sahələrində ilin bu dövrünə uyğun olaraq, müəyyən işlər görülərdi. Ancaq onu da qeyd edək ki, maldarlıq təsərrüfatında yayın ikinci dövrü "quyruqdondu" adlanır. İlin bu dövrünün maldarlıq təsərrüfatında "quyruqdondu" adlandırılmasının səbəbi aşağıdakı kimi izah edilir. Deyirlər ki, hava sərin olduğu üçün yaylaqda kəsilən heyvanın quyruğu əridildikdə donar. Deməli, ad da buna görə verilib. Onu da deyə bilərik ki, Naxçıvanın bəzi bölgələrində bu dövr "quyruqdoldu" adlandırılır. Bu da onunla izah edilir ki, həmin dövrdən artıq çöldə otlayan qoç və qoyunun quyruğu dolmağa (kökəlməyə) başlayır. Lakin toplanmış materiallardan məlum olur ki, bu nə quyruğun donması, nə də quyruğun dolması ilə bağlı deyil. Çünki bu vaxtdan təsərrüfatın digər sahələrində, atmosferdə də dəyişiklik əmələ gəldiyi müşahidə edilir. Beləliklə, "quyruqdoğdu" ifadəsi daha çox yerinə düşür. Xalqımızın uzunmüddətli müşahidəsinə görə, "quyruqlu ulduzlar"ın görünməsi ilə artıq yaylaqda dəvələr üzü arana tərəf yatır. Bununla da, qoyun maldarlar havaların soyuduğunu, arana köçməyin vaxtı gəlib çatdığını bilərdilər. Yay yarı olanda, quyruq doğduqda (avqustun 5-i) quzu qırxımına başlayardılar. Nənələrimiz danışırlar ki, yaxşı pendir tutmaq üçün "quyruqdoğdu"dan, yay yarı olandan sonra bu işə başlanılmalıdır. Xalq arasında adı, dadı dillər əzbəri olan arxac, qaşar, axtarma pendirləri daha çox ilin bu dövründən sonra tutular. El arasında bu cür pendirlərə "payız pendiri" deyərlər. Çünki ilin bu dövründə süd yağlı olduğundan ondan hazırlanan pendirlər daha dadlı olur.

Etnoqrafik-çöl materiallarına görə, ilin bu dövrü əkinçilik təsərrüfatında mühüm yer tutur. Əkinçilik təsərrüfatında bu ulduzların görünməsi yay şumunun başlanmasına işarədir. Torpağı yayda şumlayardılar ki, payız əkininə qədər Günəş şüaları torpağı qovursun. Bu zaman məhsul bol olardı. Əkinçilərin dediyinə görə, "quyruq doğana" qədər ot-küləş yığılmazdı. Çünki ot ovulub yerə tökülür, tozu isə otu yığan adama zərər verir. Ancaq "quyruq doğandan" sonra yerə şeh düşər, bu da küləşin, otun yığılıb daşınma işini asanlaşdırar.

Mövsümi müşahidələrə görə, "quyruq doğanda" sular yerin altına batar. Digər bir inama görə, bu dövrdən etibarən mineral suların tərkibi dəyişər. Sular artıq öz gücünü itirər. Payızda ağacların yarpaqları saraldıqdan sonra sular (mineral) yenidən öz kəsərini bərpa edər.

Həmin vaxtdan etibarən havalar dəyişməyə başlayır, gecələr şeh düşür. Bu durum xalq arasında işlədilən "avqustun on beşi yay, on beşi qış" ifadəsinin doğru olduğunu göstərir. Babək rayonunun Nehrəm kəndindən toplanmış materiallara görə, "quyruqdoğdu"dan sonra əqrəblər çoxalmağa başlayar. Bu da çox güman ki, havaların sərinləşməsi ilə əlaqədardır.

İllik turpu isə xalq təqviminə görə, "quyruqdoğdu"dan sonra, arpabuğdanın yerinə əkərlər.

Arıçılıq təsərrüfatında da ilin bu dövrünün özünəməxsus yeri vardır. Belə ki, peşəkar arıçıların dediyinə görə, "quyruq doğana" qədər balı kəsməzlər, çünki bu vaxta qədər bal sulu olar, tez süzülsə turşuyar.

Son olaraq qeyd edək ki, xalqın min illərlə yaddaşına hopmuş, sınaqlardan çıxmış inamlar sistemini, məişət münasibətlərini, uzun inkişaf yolu keçmiş empirik bilikləri, xalq meteorologiyasını, feneologiyasını hərtərəfli araşdırmaq, xalqın yaddaşına yenidən qaytarmaq lazımdır. Çünki bu təqvim həm də ənənəvi təsərrüfatla məşğul olan hər bir insanın iqtisadi həyatının əsasını təşkil edir.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru***

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev və nazirliyin kollektivi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin rəhbəri Sabir Məmmədova, atası **HAŞIM MƏMMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şahbuz Rayon Təhsil Şöbəsinin əməkdaşlarından Həzi Quliyev, Nizami Abbasov, Vilayət Məmmədov, Əbülfəz Novruzov, Əli Gülmalıyev və Möysün Sadiqov şöbə müdiri Tarverdi Qurbanova, əzizi **SƏRDARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 662**